# Şəxsiyyətin sosiallaşmasının müasir xüsusiyyətləri

**Səadət Mübariz qızı Aslanova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aslanzadeh225@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. T.S. Paşayev,
p.ü.f.d. X.A. Talıbova

**Açar sözlər:** sosiallaşma, inkişaf, şəxsiyyət, internet, şəxsiyyətin sosiallaşması
**Ключевые слова:** социализация, развитие, личность, интернет, социализация, социализация личности
**Key words:** socialization, development, personality, internet, personality socialization

Cəmiyyət və sosial quruluş bir yerdə dayanmır, inkişaf edir. Şəxsiyyətin sosiallaşması problemi, onun inkişafının müasir xüsusiyyətləri ilə bağlı məsələlər daim cəmiyyətdə öz aktuallığını saxlamaqdadır. Cəmiyyətdə fərdlər arasında qarşılıqlı təsir mexanizmləri, həm də sosiallaşma mexanizmləri xarici şəraitin təsiri altında müəyyən dəyişikliklərə məruz qalır. Sosiallaşma elə prosesdir ki, hər bir dövr öz tələblərinə və məzmununa uyğun sosial şəxsiyyət yetişdirir. Ona görə ki, cəmiyyət daima dəyişir, şəxsiyyət də bu dəyişikliklərlə birlikdə inkişaf edir.

Sosiallaşma (*socialis* – ictimai) fərdin sosial aləmi mənimsəməsi prosesidir, sosial əlaqələr və münasibətlər sistemidir. İnsana sosioloji yanaşmanın orijinallığı onunla səciyyələnir ki, o, ilk növbədə insanı sosial varlıq, sosial cəmiyyətin nümayəndəsi, sosial keyfiyyətlərinin daşıyıcısı kimi öyrənir. İnsanla sosial mühitin qarşılıqlı əlaqəsi prosesləri öyrənilərkən insan təkcə xarici təsirlərin obyekti kimi deyil, eyni zamanda sosial həyatın fəal iştirakçısı, öz istəklərinə malik olan sosial subyekt kimi qəbul edilir. Şəxsiyyətin sosiallaşmasının müasir xüsusiyyətləri həm də cəmiyyətin tam hüquqlu üzvü kimi optimal fəaliyyət göstərməsi üçün formalaşmalı olan onun xarakter xüsusiyyətlərinə yeni tələblərin mövzuları ilə müəyyən edilir, lakin həmin xüsusiyyətlər öz-özlüyündə əvvəlki şəxsiyyət xüsusiyyətlərindən çox fərqlənmir, amma onların birləşməsi daha böyük fayda verir.

Sosiallaşma kollektiv fəaliyyət formalarının köməyi ilə həyata keçirilir. Ünsiyyət - ailədə, məktəbəqədər uşaq müəssisələrində, məktəbdə, əmək kollektivlərində təşkil olunur. Şəxsiyyətin sosiallaşması prosesi üçün sosial mühitin əhəmiyyəti ondan ibarətdir ki, onların təsiri altında təklif olunan davranış nümunələri nəticəsində müəyyən sosial rollar, normalar və dəyərlər mənimsənilir. Sosiallaşmanın başlanğıcı, əsasən ailədə həyata keçirilir. Beləliklə sosiallaşmada ən mühüm, təməl və aparıcı qurum ailədir. Artıq insanlarda sosiallaşmanın və dəyərlər sisteminin formalaşmasında ailə və təhsil sistemi kimi kütləvi informasiya vasitələri də təsir edirlər. Ona görə də digər mühüm amil cəmiyyətin informasiyalaşmasıdır. Bu amilin təsiri şəxsiyyətin müasir şəraitdə sosiallaşmasında informasiya kommunikasiya texnologiyalarını cəmiyyətin inkişafına təsir göstərən əsas elementlərdən birinə çevirir. Zaman keçdikcə mürəkkəbləşən və daim informasiya artımı ilə xarakterizə olunan müasir cəmiyyətdə uğurlu ünsiyyət qurmaq, sosiallaşmaq və uğurla işləmək üçün demək olar ki, hər kəs İKT-dən səmərəli istifadə etməyi bacarmalıdırlar.

İnternet müasir həyatımızın müxtəlif sahələrində geniş rola malikdir. Biz internet vasitəsilə virtual kitabxanadan istifadə edirik, onlayn təhsil alırıq, virtual söhbət edirik, onlayn alış-

veriş edirik. Müasir həyatımızda kütləvi informasiya vasitələri əhəmiyyətli rol oynadığı üçün, artıq kiçikyaşlılar belə texnika dünyasının əhatəsinə düşür.

Kütləvi informasiya vasitələrinin təsiri yeni sosial mühit yaradaraq sosiallaşmanın mövcud standartlarının dəyişməsinə gətirib çıxarır. İkitərəfli istifadəçilərin qarşısında dünyanın dərk edilməsini genişləndirir. Beləliklə internet vasitəsilə yaranan sosiallaşma, ünsiyyət tələbatları bəzən real həyatın imkanlarına uyğun olmur.

İnformasiya-kommunikasiya texnologiyaları öz yeni imkanları ilə insanların həyat və fəaliyyətinin ayrılmaz hissəsi kimi çıxış edir. Məlumdur ki, Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində daima inkişaf edən ölkələr sırasına aid edilir.

Müasir dünyanı texnologiyasız təsəvvür etmək mümkün deyil. Kütləvi informasiya vasitələri müasir dövrümüzdə müəyyən vasitələrlə şəxsiyyətə öz təsirini göstərmək imkanına malikdir. Sosial şəbəkələr şəxsiyyətlərarası ünsiyyət vasitəsi yaradır. Müasir texnologiyaların yaratdığı bu imkanlar sayəsində insanlar gün ərzində çoxlu sayda informasiyalar, məlumatlar əldə edə bilirlər. Əgər biz kütləvi informasiya vasitələrinin mövcud imkanlarından məqsədyönlü şəkildə istifadə etsək, bu böyüyən gənc nəsildə onun tərbiyəvi, məlumatlandırıcı imkanlarının formalaşmasına gətirib çıxaracaq.

Beləliklə, müasir informasiya dövrü yeni cəmiyyəti - virtual cəmiyyəti yaradır. Bunun da insanlar üçün böyük üstünlükləri vardır. İnkişaf edən müasir cəmiyyətimizdə insanlar daha çox vaxtını internetdə sərf etməyə üstünlük verir. İnternet vasitələri təkcə ünsiyyət vasitəsi kimi deyil, həmçinin müəyyən növ fəaliyyəti icra vasitəsi kimi də çıxış edir. Qeyd etdiyimiz kimi internet vasitəsilə insanlar yeni fikir mübadiləsi, ünsiyyət imkanlar əldə edirlər. Bəzən geniş miqyasda əhatə olunan informasiyalaşdırma ciddi mənfi təsirlərə səbəb ola bilir.

Texnologiyanın yeni nəsillərinin dəyişkənliyi sürətli olduğu üçün insan demək olar ki, bütün həyatı boyu öyrənməli olur. Müasir təhsil həm şəxsiyyətə bilik, bacarıq verir, həm də yeni biliklər əldə etmək və ondan yeni mühitdə istifadə etmək bacarığı öyrədir. Ona görə də müasir sosiallaşma cəmiyyətində təhsilə və peşəyə yiyələnmək xüsusi əhəmiyyət kəsb edir. İnternet müasir cəmiyyətdə ictimai həyatın mühüm amilinə çevrilmişdir. İnsanlar demək olar ki, hər gün internetdən, radio və televiziyadan dünyada baş verən proseslər haqqında məlumat alırlar, müxtəlif qruplu insanlarla ünsiyyətdə olurlar. İnternet insanın sosiallaşmasının əsas tərəfi kimi çıxış edir, lakin bəzən virtual ünsiyyət sosiallaşmanın təbii prosesini pozulmasına gətirib çıxarır.

Yuxarıda deyilənlərdən belə bir nəticə hasil olur ki, sosiallaşma insanların gələcək həyatında, inkişafında daha fəal iştirak etdiyi üçün, insanlar artıq sosial münasibətlərin subyekti, iştirakçısı kimi çıxış edir. İnternet vasitələri sosiallaşma üçün ən mühüm amillərdən biri olduğuna görə, onsuz müasir dünyamızı təsəvvür etmək mümkün deyil. Sosiallaşma ömür boyu davam edən davamlı proses olduğundan, müasir cəmiyyətin daim yeniləşən xüsusiyyətlərinə uyğunlaşır.

Beləliklə, internet vasitələri dəyişkən tempi olan cəmiyyətimizə təsir edərək, sosiallaşmanın inkişafına güclü təkan verir. Eyni zamanda kütləvi informasiya vasitələri insanların dünyagörüşünü və onların dəyərlər sistemini formalaşdırır. Təbii ki bu təsirə informasiya istehlakçısı olan gənclər daxil edilir. Müasir internet vasitələrindən insanlar təkcə sosiallaşma üçün deyil, digər fəaliyyət vasitələri üçün də istifadə edirlər.

**Məqalənin aktuallığı.** Məqalədə şəxsiyyətin sosiallaşmasının müasir xüsusiyyətləri və bununla bağlı məsələlərin nəzərdən keçirilməsi özünün aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Şəxsiyyətin sosiallaşmasının müasir xüsusiyyətlərinin müəyyənləşdirilməsi ünsiyyət prosesində yeni imkanlar açır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə magistrant və dissertantlarda, ümumiyyətlə, gənc tədqiqatçılarda maraq doğuracaqdır.

## Ədəbiyyat

1. Azərbaycanda İKT-nın inkişafının şəxsiyyətin sosiallaşmasına təsiri // Gənc tədqiqatçı 2019, № 2.
2. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika: Dərslik. Bakı, 2013.
3. Mehrabov A.O. Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası // Azərbaycan məktəbi, 2005, № 4.
4. Tağıyev Q., Kazımov M. Yeniyetmələrin sosiallaşması. Bakı, 2014.
5. Virtual aləm və insanın sosiallaşması // Sivilizasiya. Bakı, 2014, № 3

**С.М. Асланова**

## Современные особенности социализации личности

## Резюме

В статье рассматривается социализация личности, ее современные особенности. Главной чертой нашего времени является информатизация общественной жизни. Показано, что информационные технологии являются одним из основных средств социализации современного общества. Таким образом, использование информационно-коммуникационных технологий в процессе социализации создает большие возможности для развития межличностного общения. Интернет создает виртуальное пространство и строит социализацию по новой структуре. Личность не теряет своих качеств в процессе социализации, а в то же время развивается, приобретая определенные качества. Мы можем видеть влияние Интернета на нашу жизнь не только в процессе социализации, но и в других сферах.

**S.M. Aslanova**

## Modern features of individual socialization

## Summary

The article discusses the socialization of the individual, his modern features. The main feature of our time is the informatization of public life. It is shown that information technology is one of the main means of socialization of modern society. Thus, the use of information and communication technologies in the process of socialization creates great opportunities for the development of interpersonal communication. The Internet creates a virtual space and builds socialization on a new structure. Personality does not lose its qualities in the process of socialization, but at the same time develops by acquiring specific qualities. We can see the impact of the Internet on our lives not only in the process of socialization, but also in other areas.

**Redaksiyaya daxil olub:** 07.03.2022